# Bakı 2015-ci il Yeniyetmələrin Təhlükəsiz və İnkluziv İdman haqqında Bəyannaməsi



unicef



Biz, Təhlükəsiz və Inkluziv idman üzrə yeniyetmələrlə milli məsləhətləşmələrin iştirakçıları Azərbaycanda və ölkə hüdudlarından kənarda təhlükəsiz və inkluziv idmanın uşaq və yeniyetmələrin həyatında əhəmiyyətini müzakirə etmək üçün 10-11 iyun 2015-i il tarixlərində Azərbaycanın Bakı şəhərində bir araya gəlmişik.

Biz uşaq və yemniyetmələrin həyatını yaxşılaşdırmaq üçün idmanın və iri miqyaslı idman tədbirlərinin gücünə inanan Azərbaycan, Braziliya və Cənubi Afrikadan olan səksən yeniyetmə və gəncik və biz rəyimizin dinlənilməsini arzu edirik.

Bu sənəddə təqdim edilmiş rəy və tövsiyələr təkcə bizim deyil, həm də 2015—ci ilin may ayında onlayn rejimdə keçirilmiş Təhlükəsiz və Inkluziv idman üzrə yeniyetmələrin milli miqyaslı məsləhətləşməsində iştirak etmiş Azərbaycanın müxtəlif regionlarından olan 15,273 həmyaşıdımızın rəyidir.

Biz hesab edirik ki, idmanla məşğul olmaq, istirahət etmək və oyun oynamaq cinsindən, yaşından, bacarığından, sosial və iqtisadi vəziyyətindən və ya harada yaşadığından asılı olmayaraq bütün qız və oğlanların universal hüququdur.

Biz həmçinin inanırıq ki, idman daha keyfiyyətli təhsili, sağlamlığı, rifahı təşviq etdirmək və bacarıqları, özünəinamı, dözümlülüyü, əməkdaşlığı, həmrəyliyi, sülhməramlılığı və möhkəmliyi inkişaf etmək bacarıqlarını dəstəkləmək üçün güclü alətdir. Bizim kimi bir çoxları üçün bu, həm də yeni dostluqlar qurmaq üçün gözəl bir imkandır.

Arzu edirik ki, bütün uşaqlar fəal həyat tərzinin üstünlüklərindən bəhrələnsin və biz hesab edirik ki, ailə, icma və hökumət səviyyəsində bütün böyüklər əlilliyi olan uşaqlar və ya kənd və ucqar ərazilərdə yaşayan uşaqlar kimi ən çox məhrumiyyətlərə məruz qalanlar da daxil olmaqla, bütün qız və oğlanları sağlam həyat tərzi sürməyə və idmanla məşğul olmağa həvəsləndirməlidir.







Biz Azərbaycan hökumətini idman sahəsinə böyük sərmayələr etdiyinə görə, ölkənin hər bir guşəsində müasir Olimpiya idman komplekslərini və Gənclər mərkəzlərini təsis etdiyinə görə və məktəb və icmalarda idman infrastrukturunu genişləndirdiyinə görə təşəkkür edirik.

Eyni zamanla gündəlik həyatımızda müşahidə edirik ki, çoxumuz hələ də təhlükəsiz və inkluziv idmandan bəhrələnmək hüququmuzdan tam dolğun şəkildə bəhrələnmirik:

- Bizlərin 53 faizi bildirmişik ki, qızlar müxtəlif növ ayrı-seçkiliyə məruz qalmağa davam edir və qadın məşqçi və ya təlimçi olmadıqda və ya qızların həyat seçimlərini məhdudlaşdıran sosial normalar və ya genderlə bağlı stereotiplər üzündən ailələr qızlara idmanla məşğul olmağa icazə vermir;

- Bizlərin 67 faizi bildirmişik ki, bəzi hallarda siniflərdə əlilliyi olan uşaqlar idman məkanlarına gəlmək üçün nəqliyyat vasitələrinin olmaması (49 faiz) üzündən idmanla məşğul olmaq imkanından məhrumdurlar. Bununla yanaşı, bir çox hallarda  mövcud olan infrastruktur müyəssər deyil (46%) və müəllim və məşqçilər əlilliyi olan uşaqları idman fəaliyyətlərinə necə cəlb etməyi bilmir (39 %);

- Kənd yerlərində yaşayan uşaqlar mövcud idman məkanlarından necə istifadə etməyi bilmir, çünki onlar idman məkanlarından çox uzaq məsafədə yaşayır;

- İdman mərkəzlərindən istifadə haqqı idmanla məşğul olmaqla bağlı ən ciddi maneələrdən biridir.

Son iki gün ərzində Bakı 2015 Birinci Avropa oyunları kontekstində biz bu çətinliklərin səmərəli həll yollarını tapmaq üçün birgə çalışırıq, çünki biz ölkəmizdə və icmalarımızda idmanın inkişaf etdirilməsinə müsbət töhfə vermək arzusundayıq.

Birincisi, biz bütün siyasətçilərdən və qərar qəbul edənlərdən bizim yaşımızda olduqda nə qədər çox idmanla məşğul olmağa can atdıqlarını xatırlamalarını xahiş etmək istərdik, belə odluqda yeniyetmələrin rəylərini və tövsiyələrini anlamaq daha asan olacaq.

İkincisi, biz Azərbaycanda uşaq, yeniyetmə və gənclər üçün təhlükəsiz və inkluziv idmanı reallığa çevirmək üçün aşağıdakı tədbirləri həyata keçirməyi tövsiyə etmək istərdik:

1 Əlilliyi olan uşaqların və qızların idman fəaliyyətlərində iştirakına xüsusi diqqət yetirməklə uşaq və yeniyetmələrin iştirakına mane olan konkret faktorları müəyyən edərək uşaq və yeniyetmələr üçün idman və istirahət obyektlərinin müyəssərliyinə və onlardan istifadə imkanlarına dair məlumatları toplamaq;

2 Ən çox məhrumiyyətlərə məruz qalmış uşaqlara xüsusi diqqət yetirməklə gündəlik əsasda məktəb və icmalarda uşaq və yeniyetmələr üçün və onlar ilə birgə təhlükəsiz və inkluziv idman və fiziki məşğələlərdən pulsuz istifadə imkanlarını təşviq və təmin edən adekvat və münasib siyasətləri, proqramları və xidmətləri yaratmaq;

3 Məktəblərdə və idman mərkəzlərində münasib həcmdə idman materiallarının olmaması, qız və oğlanlar üçün ayrıca dəyişmə otaqlarının olmaması, mövcud idman obyektlərindən istifadə haqqının yüksək olması və əlilliyi olan uşaq və yeniyetmələr üçün inkluziv xidmətlərin olmaması kimi idman və istirahət imkanlarından bəhrələnmək ilə bağlı maneələri aradan qaldırmaq;

4 Müəllim və məşqçilərimizin bilik və bacarıqlarının gücləndirilməsinə və təlimləndirilməsinə sərmayə qoymaq; məktəb və icmalarda idman fəaliyyətlərinin müvafiq bacarıqlara, təcrübəyə və səriştəyə malik şəxslər tərəfindən həyata keçirilməsini təmin etmək; mədəni və gender aspekti ilə bağlı dinamikanı və əlilliyi olan uşaqlara xüsusi diqqət yetirməklə hər bir uşağın xüsusi ehtiyaclarını nəzərə alan idman fəaliyyətlərini layihələndirmək və həyata keçirmək;

5 Qızlara özlərini daha asan ifadə etmək imkanı vermək üçün qızların xüsusi ehtiyaclarını təmin etmək məqsədilə qadın idman müəllimlərinin və məşqçilərinin cəlb olunmasını artırmaq;

6 Valideyn və qəyyumları maarifləndirmənin gücləndirilməsi tədbirləri vasitəsilə idman və istirahətin üstünlükləri barədə məlumatlandırmaq və həvəsləndirmək;

7 İcma və məktəblərdə uşaqları idman proqramları və imkanları barədə dərclər ilə lazımi səviyyədə təmin etmək və dövlət və icma səviyyəsində uşaq və yeniyetmələr arasında idman və istirahət xidmətlərinə tələbatı formalaşdırmaq;

8 Yeniyetmələrin və gənclərin qərar qəbul etmə prosesində dolğun iştirakını təmin etmək və milli və rayon səviyyələrində idman və istirahət aspektlərinə dair siyasətlərin və proqramların formalaşdırılmasında, icrasında və qiymətləndirilməsində onların fəal rolunu təşviq etmək;

9 İdmanda və idman vasitəsilə ən çox məhrumiyyətlərə məruz qalmış uşaq və yeniyetmələrin sosialı inkluziyasına xüsusi diqqət yetirməklə Avropa oyunları və gələcəkdə baş tutacaq digər iri miqyaslı idman tədbirləri ilə əlaqəli könüllülük və sosial miraslıq proqramlarını möhkəmləndirmək və ölkə, region və beynəlxalq səviyyələrdə təcrübələr mübadiləsini təşviq etmək.





Biz Azərbaycan hökumətinə və UNICEF-ə Bakı 2015 Avropa oyunları ərəfəsində bu gün bizə öz fikrimizi ifadə etmək üçün imkan verdiklərinə görə minnətdarıq.

Başladığımız iş Avropa oyunları bitdikdən sonra dayandırılmamalıdır. Biz yeniyetmə və gənclərin ölkəmizdə, icmalarımızda, məktəblərimizdə təhlükəsiz və inkluziv idmanın məşəlinin daşıyıcıları olmağı davam etmələrini arzu edirik.

Buna nail olmaq üçün biz idman, gənclər, təhsil sahəsində məsul nazirlikləri, qeyri-hökumət təşkilatlarını, beynəlxalq təşkilatları, medianı, özəl sektoru, yerli hökumət orqanlarını, valideynləri və daha çox sayda yeniyetmə və gəncləri bizim səylərimizə qoşulmağa çağırırıq.

Birlikdə biz idmanı uşaqların hüququ kimi təşviq edə bilərik. Birlikdə biz idman vasitəsilə Azərbaycanı uşaq və yeniyetmələr üçün daha da gözəl məkana, bütün uşaqların təhlükəsiz və inkluziv idmandan bəhrələnmək hüququndan tam dolğun şəkildə istifadə edə biləcəyi daha da dinamik, xoşbəxt və sağlam ölkəyə çevirə bilərik.